# TÖHFƏLƏR



*Mən hər ildə bir mayısa*
*Lap çox ümidlər bağlaram.*
*Hər gələcək mayıs üçün*
*Nisan ağlar, mən ağlaram.*

Əhməd Cavad, "Mayıs"

* * *

*Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım*
*Şu sevimli üç boyalı, üç mənalı bayrağı.*
*Mələklərin qanadımı üzərimə kölgə salan?*
*Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!*
*Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?*
*Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.*
*Fəqət bizim bayrağımız ucaları pək seviyor,*
*Yulduzlardan, hilaldan da yüksəklərdə fırlanıyor.*

Cəfər Cabbarlı, "Azərbaycan bayrağına"

## ƏMANƏT QALAN DÜNƏNİMİZ...

Hər halında, hər səslənişində gözəl, qulaqoxşayan, ruhu təzələyən anlam, kəlmə, ifadə - Respublika və ya Cümhuriyyət! Respublika – hakimiyyət orqanlarının xalq tərəfindən seçildiyi idarəetmə formasıdır. Respublika elə idarəetmə formasıdır ki, burada dövlət başçısı seçilir, dəyişdirilir, nümayəndəli orqan və ya bilavasitə seçicilər adından məhdudlaşdırılan formada hakimiyyətə sahib olmaq hüququ əldə edir.

Ötən əsrin ikinci onilliyində "Bir kərə yüksələn bayraq bir daha enməz!" (M.Ə.Rəsulzadə) şüarının ovqatından tariximizə doğmuş Azərbaycan Cümhuriyyəti adlı fəxarət hadisəsi bizə bu gözəlliyi bəxş etdi.

## DÜNƏNDƏN BU GÜNƏ...

Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ilin 28 mayından 1920-ci ilin 28 aprelinədək 1 il 11 aylıq qısa bir ömür yaşamağına baxmayaraq, siyasi-ictimai, milli-mənəvi fikir tariximizdə etdiyi dönüş elə əsaslı idi ki, 1991-ci ilin 18 oktyabrında ikinci həyatını yaşamağa başlamasının möhkəm zəmini oldu. Əhməd Cavadın sovet dönəmində qələmə aldığı yuxarıdakı misralar puç olmadı, Cəfər Cabbarlının ötəri bir zaman kəsiyində seyr etmək macalı bulduğu bayrağımız indi möhtəşəm Bayraq Meydanında əbədi dalğalanmaq qismətinin dadını çıxarmaqdadır...

* * *

Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi və "2018-ci ilin Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında"kı sərəncamlarının nəzərdə tutduğu tədbirlərə ötən ilin iyulunda yubiley komissiyasının iclası ilə start verildi.

**İclasda qeyd olundu ki, sərəncamlardan irəli gələn tapşırıqların yerinə yetirilməsi ilə bağlı ümumi koordinasiya Mədəniyyət və Turizm Nazirliyinə tapşırılıb və yubiley komissiyasına təqdim edilən 200 layihədən 100-ü seçilib.**

İclasda Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə bağlı nəinki ölkə daxilində, eləcə də bütün dünyada və aparıcı beynəlxalq qurumlar çərçivəsində müxtəlif mövzularda tədbirlər keçiriləcəyi, kitablar nəşr olunacağı, sənədli filmlər çəkiləcəyi, bu əlamətdar tarix ilə bağlı müxtəlif dillərdə ümumi bir saytın yaradılacağı və bütün foto və videomaterialların, xəbərlərin burada yerləşdiriləcəyi də təklif olunub.